В современное время количество представителей зороастризма очень мало. В мире их около 130 000.

## POSITION OF THE RELIGION OF ZOROASTRIANISM IN THE HISTORY OF AZERBAIJAN

***Ahmadova Turkan Yusif, Rzaeva Tamilla Zhir***

***Summary***

Different religions and belief systems existed in Azerbaijan in different periods of history. Zoroastrianism (Magianism) occupied an important place among the religions spread on the territory of the ancient Azerbaijani states of Atropatena and Albania. This religion is associated with the name of its founder Zoroaster.

Zoroastrianism has become one of the main religions not only in Azerbaijan, but also in Iran, Central Asia, India and other areas. Zoroastrianism and related religious and philosophical systems undoubtedly had some influence on Judaism and Christianity.

The teaching of Zoroastrianism is reflected in the Avesta. Avesta is one of the literary monuments and books considered sacred by the ancient peoples of Central Asia, including the ancestors of the Azerbaijani people. This book artistically reflects a number of aspects of the religious, moral, social, political and philosophical views of the ancient population of our country.

This religion, which retained its significance until the spread of Islam in Azerbaijan, can be called a manifestation of the centuries-old worldview of our people. These components are reflected in our traditions and national holidays.

In modern times, the number of representatives of Zoroastrianism is very small. There are about 130,000 of them in the world.

***Rəyçi: Dos. S.F.Abdullayeva***
***Protokol №3, 4 noyabr, 2022-ci il***
***Daxil olduƣu tarix 01 dekabr 2022-ci il***

**UOT:94(479.24).**

## AZƏRBAYCANLA TÜRKİYƏNİN BÜTÜN SAHƏLƏRDƏ MÜTTƏFİQLİYİNİ RƏSMİLƏŞDİRƏN ŞUŞA BƏYANNAMƏSİ

***Dos. Aslanova Emma Əli qızı, Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
**elminaznamazova@mail.ru**

**Xülasə:** *2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması Böyük Qarabağ Zəfərindən sonra böyük bir regiona sülh, sabitlik və inkişaf vəd edən strategiya olaraq həyata vəsiqə qazanmışdır. Şuşa Bəyannaməsinin tarixi Qars müqaviləsinə əsaslanması və məhz Azərbaycanın Milli Qurtuluş Günündə imzalanması dövlətçilik tariximizə əzəmət verən iki mühüm tarixi öz şərəf səltənətinə qovuşdurmuşdur.*

*Şuşa Bəyannaməsində beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı, xüsusilə də hər iki ölkənin milli və birgə təhlükəsizliyi ilə əlaqədar çox vacib məsələlər əks olunub. Ən əsası, Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.*

*Sənəddə müharibədən sonrakı mərhələdə Qafqaz regionunda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi-nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzun müddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi də vurğulanıb.*

**Açar sözlər:** Azərbaycan, Türkiyə, Şuşa Bəyannaməsi, müttəfiqlik, dostluq
**Keywords:** Azerbaijan, Turkey, Shusha Declaration, alliance, friendship
**Ключевые слова:** Азербайджан, Турция, Шушинская декларация, союз, дружба

Şuşada qoşa dalğalanmaqla ölkələrimizin birliyini nümayiş etdirən Azərbaycan və Türkiyə bayraqları yalnız siyasi, hüquqi anlamlarda qalmayıb, ruh birliyimizi nümayiş etdirir.

2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamə imzalanıb.[3]

Azərbaycan və Türkiyənin dövlət başçıları tərəfindən imzalanan sənəd 2022-ci il fevralın 1-də Azərbaycan Milli Məclisi, fevralın 3-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən tarixi sənəd kimi rəsmi surətdə ratifikasiya edilib. Beləliklə, hər iki ölkənin qanunverici orqanları 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsini təsdiqləyiblər. Bununla da Azərbaycan-Türkiyə birliyinin rəsmləşdiyini söyləmək olar.[5]

Bu sənəd hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrini əhatə edir.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin o möhtəşəm gündəki sözlərini məmnuniyyət və qürurla xatırlayırıq: "XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəalyyətimiz üçün amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk"[3]

Rəsmi Ankara və Bakı beynəlxalq məsələlərdə bir mövqedən çıxış etməklə də Şuşada imzalanan sənədin vacibliyini təsdiqləyirlər: "Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcəklər və dərinləşdirəcəklər" [1]

2010-cu ildə Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq və qarşılıqlı yardım barədə imzalanmış müqavilə də mövcud idi. Ancaq Şuşa Bəyannaməsi yeni reallıqlar yarandıqdan sonra inzalanıb və daha dəqiq, daha geniş əhatəli müttəfiqlik sənədidir.[2]

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Bəyannamədə deyilir: “ Tərəflərdən hər hansının fikrincə, onun müstəqilliyinə, süverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət vəya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədi ilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır”.

Bu maddənin Bəyannamədə qeydə alınması bu gün Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm ismsrıcdır. Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Təbii ki, öncə söhbət bölgədə əsrlərdir erməni məsələsi adı altında öz dövlət maraqlarını reallaşdıran aktorlardan və dövlətlərdən gedir. Bundan sonra bütün qonşu dövlətlər və dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

İki qardaş ölkə həm də iki dövlətin silshlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəldi. Hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsinə dair razılıq əldə olunması Azərbaycan və Türkiyə arasında münasibətlərin necə sıx və prinsipial olduğunun göstəricisidir. Bu o deməkdir ki, bundan sonra Azərbaycan və Türkiyənin Təhlükəsizlik Şuraları müntəzəm olaraq birgə iclaslar keçirəcək və təhdidlərə qarşı birgə fəaliyyət göstərəcəklər.[4]

Əgər Qars müqaviləsi təkcə Naxçıvan Muxtar Respublikasının qarantı idisə, Şuşa Bəyannaməsi birbaşa olaraq Azərbaycanın bütövlükdə təhlükəsizliyini təmin edən bir sənəddir. Bu müqavilənin daha bir strateji əhəmiyyəti də budur. Artıq Türkiyə ilə Azərbaycanın hərbi müttəfiqliyini rəsmiləşdirən ratifikasiya olunmuş sənəd mövcuddur. Eyni zamanda gələcəkdə Azərbaycanın hazırda erməni separatçıları olan bölgəsində suverenliyimizin bərpası üçün də bu müttəfiklik sənədinin çox böyük əhəmiyyəti var. Bəyannamədə konkret qeyd edilir ki, tərəflərdən hər hansı birinin suverenliyinə, ərazi bütövlüyünə təhlükə olarsa, müttəfiq tərəf müdaxilə edəcək və öz müttəfiqini qoruyacaq. Odur ki, Türkiyə bundan sonra istənilən vaxt öz silahlı qüvvələri ilə Azərbaycanın müdafiəsinə qoşulmaq səlahiyyəti əldə edib.[2]

Müqavilədə digər vacib məqamlardan biri iqtisadi-nəqliyyat məsələləri ilə bağlıdır. Azərbaycan və Türkiyə arasında imzalanan Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regional nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər yer alır. Sənəddə xüsusilə vurğulanır ki, Türiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələri ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

Tarixi gerçıklik olan Zəngəzur dəhlizinin açılışı sözsüz ki, yüz ildən çoxdur, bölgədə ermənilərin apardığı anti-Turan təbliğatına mühüm zərbədir. Burada xüsusi qeyd edilməlidir ki, ermənilər xristian ölkələrindəki lobbi qrupları vasitəsilə uzun müddət idi ki, Qafqazda xristian-vassal dövlətin qurulmasının vacibliyini vurğulayır, Turan bəhanəsini gətirərək öz geosiyasi çəkilərini artırmağa cəhd eirdilər. Lakin 2020-ci ilin payızında Qarabağda müharibənin Azərbaycanın qalibiyyəti ilə nəticələnməsi, Zəngəzur vasitəsilə yeni nəqliyyat dəglizinin açılması Ermənistan Respublikasının bu vaxta qədər davam edən geosiyasi çəkisinə mühüm zərbə olacaq və bir sıra dövlətlərin baxış bucaqlarında ermənilərin indiyə qədər olan “əhəmiyyəti” xeyli azalacaq.

Azərbaycan Prezidentinin 15 iyun 2021-ci il tarixli nitqində vurğulandığı kimi, “Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır”[3]

Türkiyə və Azərbaycan liderləri son dövrlərdə bir sıra strateji obyektlərin açılışını birlikdə həyata keçirməklə Şuşa bəyannaməsinin prinsiplərini gerçəkləşdiriblər. 2021-ci il oktyabrın 26-da Füzuli rayonu ərazisində inşa olunan beynəlxalq hava limanının, 2022-ci il mayın 14-də Rize-Artvin Hava Limanının, 2022-ci il oktyabrın 20-də Zəngilan beynəlxalq hava limanının açılışlarında Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. 2022-ci il mayın 28-də dövlət başçılarının Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalına qatılmaları da məlum bəyannamənin nəticələridir. ([1;6]

Bəyannamənin imzalanması ilə Azərbaycan və Türkiyə, həm də bir-biri ilə ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsinə, malların sərbəst hərəkətinin təşkilinə nail olacaq.

Xatırladaq ki, bir müddət əvvəl həm də, Azərbaycan və Türkiyə vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə səyahət etmək haqqında razılzşma əldə edilib. Deməli, Şuşa bəyannaməsi ilə iki ölkə arasında turizim, ticarət əlaqələrində yeni səhifənin açılmasına şahidlik edəcəyik.

Şuşa Bəyannaməsi haqqında danışarkən xüsusi vurğulayacağımız istiqamət siyahısında hazırda aktual xarakter daşıyan infiormasiya siyasəti və lobbiçilik məsələlərini qeyd etmək olar. Belə ki, tərəflərin beynəlxalq arenada daha effektiv fəaliyyəti üçün media platforması və diaspor sahəsində birgə addımlarına ehtiyac var. Bəyannamədə Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığın daha da gücləndirilməsi və Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, ümumi problemlər qarşısında birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi kimi müddəaların yer alması da deyilənlərin bariz nümunəsidir.

Həmçinin, Bəyannamədə Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəa da yer alır. Sənəddə qeyd edilir ki, tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparır. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə siylər göstəriləcək.

Bunun üçün xarici siyasət sahəsində kordinasiyanın və ikitərəfli siyasi məsləhətləşmələrin vacibliyi vurğulanır. Bu istiqamətdə Türkiyə və Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur.

Beləliklə, Azərbaycan və Türkiyə 15 iyun 2021-ci ildə tarixi addım ataraq bölgənin geosiyasi mənzərəsini dəyişəcək Bəyannaməyə imza atdı. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Ən əsası, bu Bəyannamə region üçün yeni tarixi gerçəklik deməkdir.[4]

Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin birliyi Yaxın Şərqin və Qafqazın təhlükəsizliyi, inkişafı, gələcəyi üçün dayaq, təkandır.

### *Internet resursları*


1. https://report.az/analitika/susa-beyannamesi-beynelxaq-emekdasliq-orneyi/
2. https://musavat.com/news/susa-beyannamesi-serhedin-serhedim-dusmenin dusmenimdir_898147.html
3. https://xalqqazeti.com/az/news/104404
4. https://ona.az/az/turizm/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-29117
5. https://hurriyyet.az/az/post/bir-millet-iki-dovleti-ebedi-ve-sarsilmaz-eden-susa-beyannamesi-358981
6. https://report.az/xarici-siyaset/azerbaycan-prezidenti-rize-artvin-hava-limaninin-acilisinda-istirak-edir


## АЛЬЯНС АЗЕРБАЙДЖАНА И ТУРЦИИ ВО ВСЕХ ОБЛАСТЯХ ОФОРМЛЕНИ ШУШИНСКОЙ ДЕКЛАРАЦИИ

*Асланова Емма Эли, Намазова Эльминаз Магеррам*

***Резюме***

В статье отражено подписание «Шушинской декларации» о союзнических отношениях между Азербайджанской Республикой и Турецкой Республикой Президентом Азербайджана Ильхамом Алиевым и Президентом Турции Реджепом Тайипом Эрдоганом 15 июня 2021 года в Шуше, культурной столице Азербайджан. Кроме того, в статье рассматриваются такие важные вопросы, как квалификация Декларации как стратегии, обещающей мир, стабильность и развитие большому региону после Великой карабахской победы, а также тот факт, что Шушинская

декларация основана на историческом Карском договоре и была подписана в День национального освобождения Азербайджана.

**AZERBAIJAN AND TURKEY'S ALLIANCE IN ALL FORMALIZING SHUSHA DECLARATION**

***Aslanova Emma Ali, Namazova Elminaz Maharram***

***Summary***

The article reflects the signing of the "Shusha Declaration" on the alliance relations between the Republic of Azerbaijan and the Republic of Turkey by President of Azerbaijan Ilham Aliyev and President of Turkey Recep Tayyip Erdogan on June 15, 2021 in Shusha, the cultural capital of Azerbaijan. In addition, the article examines important issues such as the Declaration's qualification as a strategy that promises peace, stability and development to a large region after the Great Karabakh Victory, and the fact that the Shusha Declaration is based on the historic Kars Treaty and was signed on the National Liberation Day of Azerbaijan.

***Rəyçi:dos. S.Bağırova***
***Azərbaycan tarixi kafedrasının 23 oktyabr 2022-ci il tarixli iclasını 03saylı protokolu***
***Daxil oduğu tarix***

**UOT:94.(479.24).**

**BEYNƏLXALQ KONFRANSLARDA AZƏRBAYCANA QARŞI IDDIALAR**

***Dosent Veyisov Arif Hacı oğlu, Mehdiyeva Həqiqət Şəadət qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***veyisov.arif@bk.ru, heqiqet.mehdiyeva.91@mail.ru***

**Xülasə:** *Məqalədə Bakı neftinin mənimsənilməsi məsələsinə aid üç böyük dövlətin-Böyük Britaniya, Almaniya və RSFSR kimi nəhəng dövlətlərin qarşıdurmasından bəhs edilir.*

**Açar sözlər:** Bakı nefti, Spa konfransı, London konfransı, Genuya konfransı, Kann konfransı, Haaqa konfransı, Türkiyə, Böyük Britaniya, Almaniya.

**Ключевые слова:**Бакинская нефть, Спанская конференция, Лондонская конференция, Генуэзская конференция, Каннская конференция, Гаагская конференция, Турция, Великобритания, Германия.

**Keys word:** the oil of Baki, Paris Peace Conference, Spa Conference, London Conference, Genoa Conference, Cannes Conference, Haaga Conference, Turkey, Great Britain, Germany.

Eyni zamanda məqalədə beynəlxalq konfranslarda nəhəng neft şirkətlərinin vaxtı ilə xarici kapitalistlərə məxsus Azərbaycanın neft sənayesindəki müəssisələrin qaytarılması tələbi öz əksini tapmışdır. Ancaq Azərbaycanın milli sərvətlərinin xarici kapitalistlər tərəfindən mənimsənilməsi baş tutmadı.

Birinci dünya müharibəsi ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Bakıda çıxarılırdı. Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar.